6 Quş qripindən qorunmaq üçün siz və ailəniz hansı addımları ata bilərsiniz?

Quş qripindən qorunmaq asandır. Gigiyena qaydalarına nə qədər çox riayət edərsinizsə, digərlərinə bir o qədər cazibədar görünərsiniz

Evdə:

- Aşağıdakı hallarda əllərini həmişə sabun və isti su ilə yu:
  - Çiy yumurta və ya çiy quş əlinə əl vurduqdan sonra
  - Ev quşlarını yeddizdikdən, onlara qulluq etdikdən, kəsdikdən və ya yoldudan sonra
  - Öskürəndən və ya əsnəndən sonra
  - Ayaqyoluna gəldikdən sonra
  - Yemekdən əvvəl
- Quş etini içində çəhrayı rəng yox olana qədər və yumurtanı sarısı və ağı bərk olana qədər bişir
- Mətbəxdə çiy quş əti və ya çiy yumurta toxunmuş səthləri digər məqsədlər üçün istifadə etməmişdən əvvəl sabun və isti su ilə yu
- Əgər əllər ev quşları saxlayırsa evə gəlməmişdən əvvəl ev quşlarını yeddizdirən və ya onlara qulluq edən zaman istifadə edilən ayaqqabılar və paltarlar deyişdir

Hansı daha təhlükəlidir? Quş əti yemək və ya ev quşu saxlamaq?

Bəzi insanlar şikayətlənirlər ki, hökumətdə əti sertifikasiya prosesinin həyata keçirilməsi üçün kifayət qədər iş görülmür. Ancaq bir quş əti və ya yumurtanı yemekdən çox onların saxlanılması zamanı daha çox təhlükə bir üzləşik. Quş qripinə səbəb olan virusu quş əti və ya yumurtanı tam bişirməklə öldürmək mümkündür. Çöldə ev quşlarına qulluq edən zaman virusa qarşı heç bir silahımız olmur. Ev quşlarının kəsilməsi və ləkələrinin yolunması xüsusilə təhlükəlidir

Qonşuluqda

- Bu kitabçadakı məlumatları dostların və qonşuların, xüsusilə də yaxşı oxuya bilməyən və ya savadı az olanlarla müzakirə et

Həyətdə və ya çöldə:

- Uşaqlar və yeniyetmələr xüsusilə həssasdır. Çöl quşlarına və ev quşlarına əl vurma, oynama və ya qulluq etmə, kiçik qardaş və bacılarını da bundan çəkindir
- Əgər əllər ev quşları saxlayırsa onların ləkələrinə, qanına, nəcisinə və ya burun ifrazatına toxunma
- Əgər əllər ev quşları saxlayırsa onlardan aşağıdakıları xahiş et:
  - Ev quşlarını kəsdikdə və ya ləkələrini yoldukda maska (tənəffü), qoruyucu gözlük, plastik əlcək və ya plastik kisəciklər geyinmək
  - Ev quşlarının saxlandığı ərazini həftədə bir dəfə bir qədər ətirli ahəng və ya spirt əlavə edilmiş su ilə təmizləmək
  - Ev quşlarını evdən üzəqda qəfəsdə saxlamaq. Bu addım sizə iki cür kömək edə bilər:
    - ☐ Bu, ev quşlarını quş qripi virusu daşıyan vəhşi quşlarla təmasdan qoruyacaq
    - ☐ Bu, ev quşları xəstələnən zaman səni və ailəni qoruyacaq

Azərbaycan Respublikası Təhsil Nazirliyi

JAPAN

unicef unite for children

Sən də müəllim ola bilərsən!

Quş qripindən qorunmaq üçün ailənə kömək et

Azərbaycan Hökuməti və Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF) tərəfindən hazırlanmış bu kitabça evlərdə və icmalarda şagirdlərin quş qripindən qorunmasına kömək etmək məqsədi daşıyır.
Ö. aşağıda göstərilmiş 6 suala cavab verir.

1. Quş qripi nədir və o niyə vacibdir?
2. Quş qripi necə yayılır?
3. Quş qripinin əlamətləri hansılardır?
4. Sən, ailə üzvlərindən biri və ya qonşularınız xəstələndikdə nə etməlisən?
5. Xəstə və ya ölmüş quşu görəndə nə etməlisən?
6. Quş qripindən qorunmaq üçün sən və ailən hansı addımları ata bilər?

1 Quş qripi nadir?

- Quş qripi virus tərəfindən törədilən yoluxucu xəstəlikdir. Əsasən çöl və ev quşları arasında yayılmasına baxmayaraq, bu xəstəlik insanları da xəstələndirə və ya öldürə bilər

Virus genetik maddədən ibarət və proteinlərlə örtülmüş mikroskopik zərrəcikdir. O, heyvan və ya insanların bədəninə daxil olduqda kütlə miqdarda çoxalır və sağlam hüceyrələrə hücum edərək xəstəlik və ya ölüm törədir

- Azərbaycanda 8 nəfər quş qripinə yoluxmuşdur. Onların 5-i dünyasını dəyişmişdir. Xəstəliyin dörd qurbanı 16 yaşına qədər uşaqlar olmuşdur. Bütün hallar 2006-cı ildə Salyan və Tartar rayonlarında baş vermişdir

- Xəstəlik nəticəsində Azərbaycanda ölmüş və ya öldürülmüş ev quşlarının sayı məlum deyil, amma ev quşları yetişdirən fermerlərin böyük iqtisadi itkilər vermişi məlumdur

- Bütün dünyada son illərdə quş qripindən 138 nəfər ölmüşdür. Xəstəlik tədricən Asiyadan Yaxın Şərqə və Avropaya yayılmışdır. Alimlər daha çox insanın xəstələnə bilməsindən qorxurlar

Əgər quş qripi virusu dəyişərsə və ya mutasiyaya uğrayarsa bu zaman o, asanlıqla insandan insana keçə bilər və bu, bütün dünyada insanların yoluxma hüseyni pandemiya ilə üzləşə bilərik. Keçmişdə 3 qrip pandemiyası olmuşdur. «İspan qripi» 1918-19-cu illərdə təxminən 50 milyon insanın ölümünə səbəb olmuşdur; «Asiya qripi» 1957-58-ci illərdə 1-2 milyon insan öldürmüşdür; və «Hong Konq qripi» 1968-69-cu illərdə 700,000-dən çox insanı məhv etmişdir

- Həyatımızı, sağlamlığımızı və hətta yaşamamızı qorumaq məqsədlə Azərbaycanda hər bir şəxs, o cümlədən şagirdlər də, quş qripi ilə mübarizə aparmaq üçün addımlar atmalıdırlar

2 Quş qripi necə yayılır?

- Alimlər belə hesab edirlər ki, quş qripi virusunu çöl quşları miqrasiya edən zaman yayır. Azərbaycan bu virusun daşıyıcısı hesab olunan köçəri quşların uçuş istiqamətində yerləşir

- Toyuqlar, ördəklər və qazlar aşağıdakı hallarda xəstəliyə yoluxa bilər

  a) yoluxmuş çöl quşlarının ifrazatına toxunduqda;
  b) vəhşi quşlarla qıdalı bölüşdükdə
  c) yoluxmuş quşların, ifrazatının, ağız suyunun və ya ölmüş cəsədlərinin düşdüyü suyu qıdada

- Mikroskopsuz görmək çətin olsa da, quş qripi virusu güclü düşmandir! Yüksək temperaturda (37 dərəcə) o, ifrazatda, avadanlıqların üzərində, paltarda və nəqliyyat vasitələrində 6 günə qədər yaşaya bilir. Aşağı temperaturda (4 dərəcə) isə virus bir aydan da çox müddət ərzində yaşamağa qadirdir. Belə virusun olduğu 1 qram peyin 1 milyon ev quşunu yoluxdura bilər

3 Quş qripinin əlamətləri hansılardır?

- **İnsanlarda** quş qripinin əlamətləri qripin əlamətlərinə oxşardır.
  - Hərarət
  - Boğaz ağrısı
  - Burun axması
  - Öskürək
  - Baş ağrısı və əzələ ağrısı

- Quş qripinin əlamətlərinə bəmçinin iltihabı, pnevmoniya (selətcam) və ya tənəffüsün çətinləşməsi da daxil ola bilər

Ev quşlarında quş qripinin əlamətləri aşağıdakılar ola bilər:

- Emalı və ya iştahanın olmaması
- Başın, gözlərinin, şişlərin, sağanın və ya ayaqların şişməsi
- Sürğə və pipiyin qızarması
- Burun ifrazatı

4 Sən, ailə üzvlərindən biri və ya qonşun xəstələndiyi halda nə etməlisən?

- Xəstə və ya ölmüş quşlarla təmasdan sonra sində və ya yaxınlarında qrip əlamətləri aşkar olunarsa, dərhal həkimə müraciət edin

- Qrip və ya quş qripi ilə xəstələndikdə insanlar aşağıdakı addımları atmalıdırlar:
  - ☐ Öskürən və əsəsən zaman ağzı əl ilə, yaylıqla və ya salfetlə örtmək.
  - ☐ Asqırıbqdan və ya öskündükdən sonra əllərə sabunla və isti su ilə yumaq.
  - ☐ Hər gün yaylıqları və digər paltarları yaxşı-yaxşı yumaq.
  - ☐ Təmiz maska (tənəffü) geyinmək.
  - ☐ Xəstə yaşlılar qıdan qalmalı və xəstə uşaqlar məktəbdən qalmalıdırlar.
  - ☐ Diş fırçalarını, stakanları və qab-qacağı bölüşməmək.
  - ☐ Evdə havanı tez-tez dəyişdirmək.
  - ☐ Tənəffüs çətinləşdiyi zaman dərhal həkimə müraciət etmək.

Əgər sənin ailən ev quşları saxlayırsa, onlarda quş qripi əlamətləri aşkar olunarsa və ya onlar qəflətən tələf olarsa, dərhal hökumət rəsmiləri ilə əlaqə saxlamaq lazımdır. Sən həmçinin aşağıdakı ehtiyat tədbirlərini görməlisən:

- Ev quşlarını evdən uzaq bir yerdə hər zaman qəfəsdə saxlamaq
- Xəstə və ya ölmüş ev quşlarına və onların tullantılarına əl vurarkən birdəfəlik istifadə üçün yararlı olan əlcək (və ya plastik kisəciklər), qoruyucu gözlük və maska (tənəffü) geyinmək
- Laboratoriya testləri ev quşlarında quş qripi aşkar edərsə, dövlət orqanları onları məhv etməli olacaq. Qıta və pul itkisi bədbəxtlikdir, sağlamlığın və ya həyatın itirilməsi isə daha pisdir
- Ölmüş quşları iki üsuldan biri ilə məhv etmək olar: 1) Cəmdəkləri yandırmaq və basdırmaq və ya 2) İki metr dərinliyi olan bir çalada cəmdəyi yandırmaq və çalanı örtməzdən əvvəl üzərinə xlorlu əhəng və ya spirt tökmək
- Xəstə və ya ölmüş quşları satmaq və ya daşımaq olmaz. Digərlərini təhlükəyə maruz qoymaqla mənfəət əldə etmək aybdır

5 Xəstə və ya ölmüş çöl quşu görəndə nə etməlisən?

Xəstə, ölən və ya ölmüş çöl quşuna heç vaxt toxunma! Valideynlərindən yerli Baytarlıq Xidməti ilə dərhal əlaqə saxlamağı xahiş et